DOI https://doi.org/10.36719/2707-9317/117/33-41

# Problems of production and sale of agricultural products in Azerbaijan

**Mushfiga Mammadova**
Candidate of Economic sciences PhD, dossent
Agricultural Economics Research Center

**Abstract:** The article provides a scientific analysis of the production volume and wholesale prices of agricultural products in Azerbaijan for 2020–2024. The study assessed the causes of fluctuations in product production in the context of market demand, logistics and export opportunities. The relationship between wholesale prices and production volume was investigated, and the impact of price instability on producer incomes was determined. The article also analyzed the impact of market infrastructure and logistics mechanisms on the turnover of agricultural products and strategic planning. Based on the results obtained, recommendations were made to optimize domestic market planning, price stability, strengthen logistics and sales networks, and increase export opportunities for strategic products.

**Keywords:** agriculture, production, wholesale, price fluctuations, market infrastructure, logistics, export.

# Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və satışı problemləri

**Müşfiqə Məmmədova**
i.ü.f.d, dosent
Aqrar Tədqiqatlar Mərkəzi baş mütəxəssis
E-mail: mushfiqa38@gmail.com

**Xülasə:** Məqalədə 2020-2024-cü illər üzrə Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi və topdan satış qiymətlərinin elmi təhlili verilmişdir. Tədqiqatda məhsul istehsalındakı dalğalanmaların səbəblərini, bazar tələbi, logistika və ixrac imkanları kontekstində qiymətləndirilmişdir. Topdan satış qiymətləri və istehsal həcmi arasındakı əlaqələr araşdırılmış, qiymətlərdəki qeyri-sabitliyinin istehsalçı gəlirlərinə təsiri müəyyən edilmişdir. Məqalədə həmçinin bazar infrastrukturunun və logistika mexanizmlərinin kənd təsərrüfatı məhsullarının dövriyyəsinə və strateji planlaşdırmaya təsiri təhlil edilmişdir. Əldə olunan nəticələr əsasında daxili bazar planlaşdırmasının optimallaşdırılması, qiymət stabilliyi, logistika və satış şəbəkələrinin gücləndirilməsi və strateji məhsulların ixrac imkanlarının artırılması istiqamətində tövsiyələr verilmişdir.

**Açar sözlər:** kənd təsərrüfatı, istehsal, topdan satış, qiymət dalğalanmaları, bazar infrastrukturu, logistika, ixrac.

## Giriş

Müasir dövrdə bazar iqtisadiyyatının tələbləri kənd təsərrüfatı sektorunun fəaliyyəti qarşısında yeni iqtisadi və təşkilati şərtlər qoyur [11; 12]. Bu, bir tərəfdən məhsuldarlığın artırılmasını və resurslardan səmərəli istifadənin təmin edilməsini, digər tərəfdən isə aqrar sahədə institusional və innovativ idarəetmə mexanizmlərinin formalaşdırılmasını tələb edir.

Azərbaycan Respublikasında son illərdə həyata keçirilən iqtisadi islahatlar və qəbul edilən strateji sənədlər, xüsusilə "Azərbaycan Respublikası regionlarının 2019 - 2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", bu istiqamətdə kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur [1]. Sənəddə regionlarda, o cümlədən kənd yerlərində iqtisadi fəallığın artırılması, innovativ texnologiyaların tətbiqi, istehsal və xidmət sahələrinin modernləşdirilməsi, qeyri-neft sektorunun və ixrac potensialının genişləndirilməsi əsas prioritet kimi müəyyən edilmişdir.

E.Ə.Quliyev öz tədqiqatlarında qeyd edir ki, *"Aqrar sahədə ixtisaslaşma düzgün aparılmadığından və təsərrüfatların zəif idarə edilməsi səbəbindən istehsal resurslarından və təbii torpaq-iqlim amillərindən səmərəli istifadə olunmur, nəticədə kənd təsərrüfatında məhsuldarlıq səviyyəsi aşağı həddə qalmaqda davam edir. Aparılan müşahidələr göstərir ki, son illərdə aqrar sahədə biznes mühiti zəif inkişaf etməkdədir, bu isə istehsal olunan məhsulun emal olunaraq bazara təklif edilməsi təcrübəsinin məhdudluğu ilə bağlıdır. Bu həm də aqrobiznes fəaliyyətinin genişləndirilməsinə və satış bazarlarına çıxış imkanlarının zamanətli şəkildə təmin edilməsinə mane olur. Belə təsərrüfatlar, bir qayda olaraq, "tarla – emal - istehlakçı" tipli texnoloji zəncirlərə daxildir, onların bir çoxu öz satış şəbəkəsini (hipermarketlərin tərkibində) və mağazalarını formalaşdırmağa başlamışdır (ABAD təcrübəsi). Bu yanaşma ixtisaslaşmanın inkişafı üçün mühüm amil olsa da, ondan səmərəli istifadə olunmur."* [3, s. 375]

Kənd təsərrüfatı məhsullarının istehsal və satış həcmləri yalnız daxili bazarın təmin edilməsində deyil, həm də ölkənin ixrac potensialının gücləndirilməsində mühüm rol oynayır. Dövlət Proqramında göstərildiyi kimi, regionlarda sahibkarlığın və investisiya fəallığının artırılması, rəqabət mühitinin sağlamlaşdırılması, istehsal, sosial və bazar infrastrukturunun müasirləşdirilməsi, təbii resurslardan səmərəli istifadə və ekoloji təhlükəsizliyin təmin edilməsi bu məqsədlərə xidmət edir.

Əvvəlki tədqiqatlarımızda da qeyd etdiyimiz kimi, kənd təsərrüfatı istehsal vasitələrinin

təminatında yaranan problemlərin həlli məqsədilə dövlət texnika, gübrə və digər resursların alınması ilə yanaşı, onların istehsalçılara çatdırılmasını təmin edən infrastrukturun yaradılmasına da diqqət yetirmişdir. Aqrar sahədə bazar infrastrukturunun inkişafı istehsal itkilərinin azaldılmasına və məhsulun keyfiyyətinin qorunmasına şərait yaratsa da, bu sistemin səmərəli və tam fəaliyyət göstərməsi hələ təmin edilməmişdir. Mövcud struktur və texnoloji çatışmazlıqlar bazar infrastrukturunun modernləşdirilməsini və institusional mexanizmlərin təkmilləşdirilməsini zəruri edir. İnfrastrukturun inkişafı kənd təsərrüfatı istehsalının dayanıqlılığı və bazar münasibətlərinə uyğunlaşması üçün mühüm əhəmiyyət daşıyır [5, s 160].

Eyni zamanda, kənd təsərrüfatı istehsalının dayanıqlı inkişafı, məhsul çeşidinin optimallaşdırılması, qiymətlərin stabilliyi və logistika infrastrukturunun təkmilləşdirilməsi iqtisadi sabitliyin qorunması üçün vacib şərtlərdir. Ölkədə kənd təsərrüfatı məhsullarının istehsal və satış göstəricilərində müşahidə olunan dalğalanmalar və qiymət qeyri-sabitliyi istehsalçı gəlirlərinə birbaşa təsir göstərdiyindən, iqtisadi və institusional tədbirlərin gücləndirilməsi, subsidiya mexanizmlərinin təkmilləşdirilməsi və strateji məhsullar üzrə planlaşdırmanın optimallaşdırılması zəruridir.

Beləliklə, kənd təsərrüfatı məhsullarının istehsal və satış problemlərinin elmi təhlili, mövcud tendensiyaların qiymətləndirilməsi və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsində mühüm əhəmiyyət kəsb edir.

**Kənd təsərrüfatı məhsullarının topdan satış qiymətləri**

2020-2024-cü illər üzrə əsas kənd təsərrüfatı məhsullarının topdan satış orta qiymətləri aşağıdakı meyarlara əsaslanır. Topdan satış qiymətləri istehsalçıdan topdan satışa keçid zamanı formalaşır və məhsulun pərakəndə satış qiymətinə nisbətən daha aşağı olur. Bu qiymətlər bazar tələbi, istehsal həcmi, mövsümi amillər və logistika xərcləri ilə birbaşa əlaqədardır.

Məlumatlardan göründüyü kimi:

- **Qiymət dalğalanmaları:** Buğda və arpa kimi strateji məhsulların qiymətlərində müəyyən eniş və artım müşahidə olunur. Bu, daxili bazarda istehsalçı gəlirlərinin sabitliyinə təsir göstərir.
- **İstehsal və qiymət əlaqəsi:** Çəltik və pomidor kimi məhsullarda topdan satış qiymətləri istehsalın artımı ilə paralel olaraq yüksəlmişdir. Digər tərəfdən, buğda və arpa istehsalında azalma topdan satış qiymətlərində də azalma tendensiyasına səbəb olmuşdur.
- **Meyvə və tərəvəz məhsulları:** Üzüm, nar və digər strateji məhsulların qiymətlərində xeyli dalğalanmalar baş vermişdir ki, bu da istehsal planlamasında və bazara çıxış strategiyalarında çətinliklər yaradır.
- **Topdan və pərakəndə satış arasındakı fərqlər:** Topdan satış qiymətləri məhsulun dəyər zəncirində istehsalçıdan topdan satışa keçid mərhələsini əks etdirir, pərakəndə satış qiymətləri isə bazar vasitəçiləri və logistika xərclərini də nəzərə alır. Bu fərq istehsalçı gəlirlərinin optimallaşdırılması üçün mühüm göstəricidir.

Cədvəl 1-də 2020-2024-cü illər üzrə əsas kənd təsərrüfatı məhsullarının topdan satış orta qiymətləri təqdim olunur.

**Cədvəl 1**

**Kənd təsərrüfat məhsulların 2020-2024-ci illər üzrə topdan satış orta qiymətləri, manat/kq**

| Məhsullar | | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|
| **Buğda** | | 0.43 | 0.44 | 0.60 | 0.42 | 0.37 |
| **Arpa** | | 0.41 | 0.41 | 0.49 | 0.40 | 0.37 |
| **Çəltik** | | 2.36 | 2.36 | 2.42 | 2.73 | 3.00 |
| **Pambıq** | | 0.63 | 0.64 | 0.71 | 0.77 | 0.76 |
| **Yaşıl çay** | | 1.25 | 1.37 | 1.62 | 1.33 | 1.28 |
| **Tütün** | **yaş** | 0.18 | 0.20 | 0.24 | 0.27 | 0.27 |
| | **quru** | 1.97 | 1.79 | 1.99 | 2.22 | 2.68 |
| **Kartof** | | 0.59 | 0.75 | 0.87 | 0.84 | 0.90 |
| **Baş soğan** | | 0.40 | 0.38 | 0.54 | 0.60 | 0.43 |
| **Pomidor** | | 1.35 | 1.32 | 1.61 | 2.23 | 2.33 |
| **Xiyar** | | 1.25 | 1.41 | 1.42 | 1.47 | 2.09 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Kələm** | 0.33 | 0.60 | 0.55 | 0.39 | 0.47 |
| **Süfrə yerkökü** | 0.67 | 0.85 | 0.83 | 0.91 | 0.78 |
| **Alma** | 1.24 | 0.87 | 1.00 | 1.00 | 1.25 |
| **Xurma** | 0.78 | 0.54 | 0.57 | 0.90 | 0.99 |
| **Nar** | 1.37 | 1.38 | 1.02 | 1.07 | 2.99 |
| **Üzüm** | 1.42 | 1.18 | 1.38 | 1.90 | 2.50 |
| **Fındıq** | 5.10 | 5.20 | 3.73 | 3.97 | 4.70 |
| **Qoz** | 5.19 | 4.74 | 4.00 | 4.06 | 5.82 |

***Mənbə: www.aqrarbazar.az*** [17].

Məlumatlardan göründüyü kimi cədvəl 1-də 2020-2024-cü illər üzrə əsas kənd təsərrüfatı məhsullarının topdan satış orta qiymətləri təqdim olunmuşdur. Məlumatlardan görünür ki, məhsulların qiymət dinamikası məhsul növündən və bazar tələbatından asılı olaraq fərqlənir.

Məsələn, çəltik və pomidor qiymətlərində artım müşahidə olunur. Çəltik 2020-ci ildə 2,36 manat/kq, 2024-cü ildə isə 3,00 manat/kq səviyyəsinə yüksəlmişdir. Pomidorun qiymətində də oxşar artım baş vermişdir, bu da daxili istehlak və ixrac imkanlarının genişlənməsi ilə izah olunur.

Buna qarşılıq, buğda və arpa kimi strateji taxıl məhsullarının qiymətləri 2020–2024-cü illərdə azalma tendensiyası göstərmişdir. Bu, istehsal həcminin artması və bazarda rəqabətin güclənməsi ilə bağlıdır.

Meyvə və tərəvəz məhsullarında isə qiymət dalğalanmaları nəzərə çarpandır. Üzüm və nar kimi strateji məhsulların qiymətləri 2024-cü ildə müvafiq olaraq 2,50 manat/kq və 2,99 manat/kq səviyyəsinə yüksəlmişdir. Bu dalğalanmalar istehsal mövsümündən, ixrac imkanlarından və bazar tələbatından birbaşa təsirlənir.

Ümumilikdə, kənd təsərrüfatı məhsullarının topdan satış qiymətlərində müşahidə olunan fərqliliklər istehsalçı gəlirlərinin sabitliyinə, bazar tənzimləməsinə və strateji planlaşdırmaya birbaşa təsir göstərir. Bu səbəbdən qiymət dinamikasının təhlili və uyğun iqtisadi tədbirlərin görülməsi ölkənin kənd təsərrüfatı sektorunun davamlı inkişafı üçün aktualdır.

Kənd təsərrüfatı məhsullarının istehsal həcmi və satış qiymətləri bir-biri ilə sıx bağlıdır. Topdan satış qiymətləri istehsalçılar üçün əsas göstərici olmaqla, onların istehsal qərarlarını formalaşdırır. Qiymətlər yüksək olduqda istehsalçılar əlavə investisiya və resurs sərf etməklə məhsulu artırmağa maraqlıdırlar, əks halda istehsalın genişləndirilməsi riskli hesab olunur.

İ.H. İbrahimov qeyd edir ki, “Kənd təsərrüfatı məhsullarının tədarükü ölkənin sosial-iqtisadi inkişafının qarşısında qoyulmuş vəzifələrdən, mövcud ehtiyatlardan və istehsal şəraitindən, iqtisadi inkişaf səviyyəsindən asılı olaraq müəyyən edilmişdir” [2, s. 382-383].

Məhsul qiymətlərinin dəyişməsi həm daxili, həm də ixrac bazarında tələb-təklif münasibətindən asılıdır [13; 14]. Qiymətlərin artması istehsalçılar üçün əlverişli marja yaradır və istehsalın artırılmasını stimullaşdırır, qiymətlərin düşməsi isə gəlir gözləntilərini azaldaraq istehsalçıların risklərini artırır.

Eyni zamanda, istehsalçı qərarlarına topdan və pərakəndə satış arasındakı fərq də təsir edir. Topdan satış qiymətləri istehsalın planlaşdırılmasında əsas göstərici olsa da, pərakəndə qiymətlər bazar tələbini əks etdirir və məhsulun reallaşdırılması imkanlarını müəyyən edir. Bu əlaqə istehsalçının məhsul çeşidinin seçimi, həcmi və bazara çıxış strategiyası baxımından önəmli rol oynayır.

Beləliklə, cədvəl 2-də təqdim olunan istehsal həcmi məlumatları topdan satış qiymətləri ilə birlikdə qiymətləndirilərək, məhsul növü və bazar tələbinə uyğun iqtisadi təhlil aparmaq mümkündür.

**Cədvəl 2**

**Kənd təsərrüfat məhsulların 2020-2024-ci illər üzrə istehsal həcmi, ton**

| | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| **Buğda** | 1867271,5 | 1885405,3 | 1736087,2 | 1833848,9 | 1685734,0 |
| **Arpa** | 1020054,9 | 1146698,3 | 1100754,2 | 1066682,0 | 1228175,8 |
| **Çəltik** | 9922,6 | 10675,9 | 11570,3 | 14893,4 | 19599,7 |
| **Pambıq** | 336791,5 | 287040,8 | 322471,0 | 276310,9 | 310825,2 |
| **Yaşıl çay** | 931,5 | 1177,7 | 1000,9 | 1123,8 | 1069,5 |
| **Tütün** | 6949,3 | 6417,0 | 5067,0 | 6336,2 | 6478,3 |
| **Kartof** | 1037636,8 | 1061957,7 | 1074261,3 | 1010517,4 | 927381,7 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Baş soğan** | 274884,2 | 286375,0 | 275194,7 | 310259,4 | 364390,7 |
| **Pomidor** | 774876,9 | 807346,8 | 826492,9 | 845524,8 | 812614,0 |
| **Xiyar** | 226929,3 | 245846,7 | 246572,3 | 219777,1 | 211235,3 |
| **Kələm** | 129618,7 | 132413,9 | 133517,3 | 125158,2 | 119954,6 |
| **Süfrə yerkökü** | 30676,1 | 34532,3 | 38920,6 | 33733,2 | 30532,6 |
| **Alma** | 301410,5 | 308386,4 | 318197,2 | 301786,5 | 293263,4 |
| **Xurma** | 185247,0 | 192474,4 | 184290,9 | 187058,4 | 205597,5 |
| **Nar** | 182148,5 | 185295,6 | 187439,8 | 190452,2 | 192748,6 |
| **Fındıq** | 49464,9 | 67630,2 | 72104,6 | 75409,3 | 72771,1 |
| **Qoz** | 12637,7 | 13136,2 | 13646,5 | 14344,1 | 15107,0 |
| **Üzüm** | 208019,1 | 209843,2 | 212645,1 | 224517,1 | 205105,2 |

***Mənbə: https://www.stat.gov.az/source/agriculture/*** [16].

Cədvəl 2-də təqdim olunan məlumatlar göstərir ki, 2020-2024-cü illər ərzində kənd təsərrüfatı məhsullarının istehsal həcmi məhsul növündən və bazar tələbatından asılı olaraq fərqli dinamika nümayiş etdirir. Bu həcmlərin topdan satış qiymətləri ilə əlaqəsi iqtisadi təhlil baxımından mühüm əhəmiyyət kəsb edir.

**Taxıl məhsulları:**

- **Buğda** istehsalı 2020-ci ildə 1,867,271 ton səviyyəsində olub, 2024-cü ildə 1,685,734 tona qədər azalmışdır. Bu azalma **buğda qiymətlərində 2020 – 2024 - cü illər ərzində müşahidə olunan enməyə** uyğun gəlir. Belə ki, istehsalın azalması bəzi illərdə qiymətlərin yüksəlməsinə təsir edə bilsə də, bazarda digər faktorlardan (rəqabət, ixrac imkanları) asılı olaraq qiymət dəyişkənliyi qeydə alınmışdır.
- **Arpa** istehsalı isə 2021-ci ildə 1,146,698 tonla maksimum həddə çatmışdır. Bu yüksək istehsal həcmi arpa qiymətlərinin 2021-ci ildən sonra azalma meyli göstərməsinə səbəb olmuşdur, yəni təklifin artması qiymətlərin düşməsinə təsir edir.

**Çəltik və pambıq:**

- **Çəltik** istehsalı 2020-ci ildə 9,922 ton səviyyəsində olub, 2024-cü ildə 19,599 tona yüksəlmişdir. Eyni dövrdə çəltik qiymətlərində də artım müşahidə olunmuşdur (**2,36 → 3,00 manat/kq**). Bu, daxili və ixrac bazarındakı tələbin istehsaldan daha sürətlə artması ilə izah oluna bilər.
- **Pambıq** istehsalı dalğalanmalar göstərir; 2020-ci ildə 336,791 ton, 2024-cü ildə isə 310,825 ton səviyyəsində olmuşdur. Qiymətlər isə tədricən artaraq istehsal həcminin qiymətə təsirini bir qədər yumşaldır.

**Tərəvəz məhsulları:**

- Kartof və xiyar istehsalı 2020–2024-cü illərdə azalma meyli göstərir. Məsələn, kartof istehsalı 1,037,636 tondan 927,381 tona qədər azalmışdır. Bununla belə, topdan satış qiymətləri müəyyən dalğalanmalar nümayiş etdirir (kartof: 0,59 → 0,90 manat/kq; xiyar: 1,25 → 2,09 manat/kq). Bu, təklifin azalması ilə bazar tələbinin üst-üstə düşməsi nəticəsində qiymət artımına səbəb olmuşdur.

**Meyvə və qoz-fındıq:**

- Fındıq istehsalı 2020-ci ildə 49,464 ton, 2024-cü ildə isə 72,771 ton olmuşdur. İstehsal həcminin artması qiymətə də müsbət təsir göstərmiş, 2024-cü ildə fındıq qiyməti **4,70 manat/kq** səviyyəsinə yüksəlmişdir.
- Üzüm və nar kimi strateji məhsullarda da istehsal artımı qiymət dinamikası ilə sıx əlaqəlidir; narın topdan satış qiyməti 2024-cü ildə **2,99 manat/kq**, üzümün isə **2,50 manat/kq** səviyyəsinə çatmışdır. Bu, məhsulun yüksək bazar tələbi ilə izah olunur.

**Ümumilikdə** məlumatlar göstərir ki, kənd təsərrüfatı məhsullarının topdan satış qiymətləri ilə istehsal həcmi arasında əks və birbaşa əlaqələr mövcuddur:

- İstehsalın artması bəzi hallarda qiymətlərin azalmasına gətirib çıxarır (taxıl məhsulları),
- Bəzi məhsullarda isə yüksək tələbin təsiri ilə həm istehsal, həm də qiymət artımı müşahidə olunur (çəltik, meyvə və qoz-fındıq).

Qeyd edək ki, aparılan təhlil, kənd təsərrüfatı sektorunda məsuliyyətli planlaşdırma və bazar tənzimləməsi strategiyalarının hazırlanması üçün əhəmiyyətlidir.

**Bazar infrastrukturu və loqistika amilləri**

Əvvəlki bölmələrdə kənd təsərrüfatı məhsullarının istehsal və topdan satış qiymətləri təhlil edilmişdir. Eyni zamanda, bazar infrastrukturu və logistika əməliyyatları istehsalın səmərəliliyinə və məhsulun bazara çıxışına birbaşa təsir göstərir [12]. Azərbaycan kənd təsərrüfatı sektorunda məhsul istehsalının səmərəliliyini və satış imkanlarını artırmaq üçün loqistika və bazar infrastrukturu mühüm rol oynayır. Ənənəvi idarəetmə yanaşmalarından fərqli olaraq, loqistika nəzəriyyəsi material və informasiya axınlarını istehsal daxilində, istehsal ilə bazar arasında, həmçinin müəssisələr arasında sistemli şəkildə təşkil etməyə yönəldilmişdir. Bu yanaşma məhsulun fasiləsiz hərəkətini təmin etmək, istehsal və satış prosesində yaranan gecikmələri, disproporsiyaları və digər maneələri aradan qaldırmaq məqsədini daşıyır.

Mikro-, mezo- və makrologistika səviyyələrində tətbiq edilən idarəetmə sistemləri material axınlarının koordinasiyasını və informasiya inteqrasiyasını təmin edərək, istehsal proseslərinin elastikliyini və çevikliyini artırır. Logistik əməliyyatlar yalnız material axınlarının hərəkətini deyil, həm də onların müvəqqəti saxlanmasını və transformasiyasını əhatə edir, bu da istehsalın çevikliyini və istehlakçı tələblərinə operativ uyğunlaşmanı mümkün edir.

Azərbaycan kontekstində bu prinsiplərin praktik tətbiqi ən yaxşı nümunəsi olaraq paytaxtdakı "Meyvəli" meyvə-tərəvəz bazarını göstərmək olar [6]. Burada ölkənin müxtəlif regionlarından və xarici ölkələrdən gətirilən məhsullar topdansatış və pərakəndə satış üçün sistemli şəkildə paylanır. Bazarın yüksək standartlara uyğun infrastrukturuna 80 satış anbarı, 36 soyuducu anbar, yükləmə-çıxarma terminalları və elektron tərəzilər daxildir. Bu imkanlar məhsulların keyfiyyətini qoruyaraq, fasiləsiz tədarük zənciri yaratmağa və qiymətlərin stabil qalmasına şərait yaradır.

E.Ə.Quliyev və C.N. Səfərov qeyd edirlər ki, aqrar islahatların başlanğıcından etibarən kənd təsərrüfatı məhsullarının satış mexanizmləri ölkə üçün aktual problem olaraq qalmaqdadır. Satış infrastrukturu istiqamətində müəyyən tədbirlər (məsələn, "Meyvəli" topdansatış bazasının yaradılması, yarmarkaların təşkili, "Aqrar tədarük və təchizat" ASC-nin formalaşdırılması) həyata keçirilsə də, bu sahədə sistemli və davamlı bazar mexanizmləri tam formalaşmamışdır. Nəticədə regionlarda satış prosesi nizamsız şəkildə, şəraiti uyğun olmayan məkanlarda aparılır və bu, istehsalçıların gəlirlərinə mənfi təsir göstərməklə ixtisaslaşma prosesini ləngidir [4, s 39].

Kənd təsərrüfatı məhsullarının istehsalı və satışında dəyər zənciri modeli prosesin bütün mərhələlərinin qarşılıqlı əlaqəsini əks etdirərək məhsulun ilkin istehsalından son istehlakçıya çatdırılmasınadək formalaşan iqtisadi əlaqələri sistemləşdirir. Bu qarşılıqlı əlaqələr və mərhələlər Sxem 1-də əyani şəkildə göstərilmişdir.

Sxem 1-də təqdim olunan dəyər zənciri modeli göstərir ki, kənd təsərrüfatı məhsullarının səmərəli dövriyyəsi yalnız istehsal mərhələsində deyil, həm də tədarük, loqistika, satış və informasiya axınlarının koordinasiyasında formalaşır. Bu inteqrasiya istehsalçı gəlirlərini və bazar sabitliyini təmin edən əsas iqtisadi mexanizm kimi çıxış edir.

Apardığımız araşdırmalar göstərir ki, bazarda nəzarət mexanizmi topdansatış qiymətlərinə təsir göstərərək istehsalçı ilə istehlakçı arasındakı vasitəçilər tərəfindən süni qiymət artımının qarşısını alır və istehlakçılar üçün əlverişli qiymət siyasətini təmin etməyə çalışır. Bununla belə, son qərarı bazarda tələb və təklif şərtləri müəyyən edir. Praktiki müşahidələr göstərir ki, paytaxt bazarları ilə müqayisədə "Meyvəli"də məhsulların qiymətləri orta hesabla 10 - 20% ucuzdur, topdansatış qiymətləri isə 25 - 30% qədər endirilə bilir. Qeyd edək ki, bu fərq elmi baxımdan dəyər zəncirinin düzgün qurulması ilə əlaqədardır və bazarın logistika və koordinasiya sisteminin səmərəliliyini, eyni zamanda istehlakçı büdcəsinə qənaəti təmin edir.

Dinamik bazar şəraitində infrastrukturu adaptiv şəkildə tənzimləmək, obyektlərin yerləşməsi, resurs bölgüsü və ehtiyatların idarə olunmasını davamlı yeniləmək logistika sisteminin səmərəliliyini artırır. Makroiqtisadi səviyyədə tərəfdaş əlaqələrinin və iqtisadi maraqların koordinasiyası məhsulun bazara çıxışını və logistika əməliyyatlarının səmərəliliyini gücləndirir.




**Sxem 1. Kənd təsərrüfatı məhsullarının dəyər zənciri modeli, Müəllif tərəfindən tərtib edilmişdir.**

Nəticə etibarilə, səmərəli bazar infrastrukturu və logistika Azərbaycan kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətini yüksəldir, istehlakçı tələblərinə operativ cavab verməyi təmin edir və iqtisadi faydanın maksimallaşdırılmasına mühüm töhfə verir. “Meyvəli” bazarı bu prinsipin uğurlu praktiki tətbiqi kimi ölkədə kənd təsərrüfatı məhsullarının optimal paylanması, qiymət stabilliyi və bazar iştirakçılarının iqtisadi maraqlarının təmin edilməsində nümunəvi rol oynayır.

**Problemlər və Təhlil**

2020–2024-cü illər üzrə kənd təsərrüfatı məhsullarının istehsal və topdan satış qiymətləri üzrə aparılan təhlil göstərir ki, sektor bir sıra struktur və bazar problemləri ilə üzləşir:

1. **Qiymət dalğalanmaları:** Buğda və arpa kimi strateji məhsulların qiymətlərində ciddi dalğalanmalar müşahidə olunur. Məsələn, buğda qiymətləri 2020–2024-cü illərdə dəyişkənlik göstərərək istehsalçıların gəlirlərində qeyri-sabitlik yaratmışdır. Qiymət enişləri daxili bazarda istehsalçıların iqtisadi riskini artırır və uzunmüddətli investisiya planlarının hazırlanmasını çətinləşdirir.

2. **İstehsalın qeyri-bərabərliyi:** Təhlil göstərir ki, çəltik və fındıq kimi bəzi məhsulların istehsal həcmi artan tendensiya nümayiş etdirir, lakin kartof, xiyar və bəzi tərəvəz məhsullarında azalma müşahidə olunur. Bu qeyri-bərabərlik məhsul tədarükünün sabitliyinə və bazar balansının pozulmasına səbəb olur.

3. **Bazara çıxışın məhdudluğu:** Topdan satış qiymətlərinin sabit olmaması, bazara çıxış imkanlarının məhdudluğu və marketinq şəbəkələrinin zəifliyi istehsalçıları risk altında qoyur. Bu vəziyyət xüsusilə kiçik və orta sahibkarlar üçün bazar payı və mövqe qazanma səviyyəsini çətinləşdirir, məhsulların dəyərinin tam reallaşdırılmasına maneə yaradır.

4. **Məhsulların ixrac potensialı və logistika problemləri:** Meyvə və qoz-fındıq kimi məhsullar ixrac üçün böyük perspektivlərə malikdir. Lakin daxili bazarın tələbatına uyğun planlaşdırma və logistika infrastrukturunun hələ də kifayət qədər inkişaf etməməsi ixrac imkanlarını

məhdudlaşdırır. Bu da strateji məhsullar üzrə əlavə dəyər yaradılması və rəqabət qabiliyyətinin artırılmasına mane olur.

**Nəticə və tövsiyələr**

Kənd təsərrüfatı məhsullarının istehsal və satışında baş verən dalğalanmalar strateji planlaşdırma və bazar mexanizmlərinin təkmilləşdirilməsini zəruri edir. Təhlillər göstərir ki, istehsalın artımı və topdan satış qiymətlərinin stabilliyi üçün kompleks tədbirlər tələb olunur. Tövsiyə olunan əsas istiqamətlər aşağıdakılardır:

- **Daxili bazar üçün istehsal planlarının optimallaşdırılması:** Məhsul çeşidliliyi və həcmlərin bazar tələbatına uyğun tənzimlənməsi.
- **Qiymət stabilliyi mexanizmləri:** Subsidiyalar, güzəştli kreditlər və maliyyə dəstəyinin tətbiqi ilə istehsalçı gəlirlərinin qorunması.
- **Logistika və marketinq infrastrukturunun gücləndirilməsi:** Məhsulların bazara çıxışı, keyfiyyətin qorunması və satış şəbəkələrinin inkişaf etdirilməsi.
- **Strateji məhsullar üzrə ixrac imkanlarının artırılması:** Meyvə, qoz-fındıq və digər yüksək ixrac potensiallı məhsulların ixrac imkanlarının planlı şəkildə genişləndirilməsi, ticarət əlaqələrinin və logistikanın təkmilləşdirilməsi.

Bu tədbirlər tətbiq olunduqda kənd təsərrüfatı sektorunda istehsalın sabitliyi təmin edilər, bazar tələbatı ödənə və strateji məhsullar üzrə iqtisadi səmərəlilik artırıla bilər.

**İstifadə olunmuş ədəbiyyat / *References***

1. "Azərbaycan Respublikası regionlarının 2019 - 2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı. https://e-qanun.az/framework/41320
2. İbrahimov, İ.H, Aqrar sahənin iqtisadiyyatı, / İ.H. İbrahimov, Monoqrafiya, Bakı, - 2016. 655 s.
3. Quliyev E.Ə. Kənd əhalisinin gəlirlərinin artmasında və kənd yerlərinin inkişafında ixtisaslaşmanın rolu, / E.Ə. Quliyev, Yeni nəsil iqtisadiyyat: çağırışlar və perspektivlər, Beynəlxalq elmi-praktik konfrans., Bakı 4 oktyabr 2024.(s 372-378).
4. Quliyev E.Ə., Səfərov C.N., Kənd təsərrüfatının ixtisaslaşması və regionlarda aqrar məhsullar bazarının inkişafı, / E.Ə. Quliyev, C.N.Səfərov, Kənd Təsərrüfatının İqtisadiyyatı - 2024, № 2 (46). (s 38-46) https://atm.gov.az/pdf/magazine/jurnal-n2-2024-online-son856.pdf
5. Məmmədova, M. Ə. Aqrar sahədə bazar infrastrukturunun inkişaf mexanizmi, / M. Ə. Məmmədova, Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34), (s 158-162) https://agroeconomics.az/pdf/articles/Aqrar%20sah%C9%99d%C9%99%20bazar%20infrastrukturunun%20inki%C5%9Faf%20mexanizmi.pdf
6. Məmmədova, M. Ə. Ölkənin kənd təsərrüfati istehsalçilarinin bazarlara çixiş imkanlarinin müasir vəziyyətinin qiymətləndirilməsi / Ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş "Aqrar islahatlar 30: Nailiyyətlər və Perspektivlər" mövzusunda Respublika elmi-praktiki konfransın materialları / Gəncə May 08, 2025, s.479-483
7. Гага В.А., Шабаршев В.А., Шеховцев В.Г. Рыночная инфраструктура и ее значение в современной экономике // Рыночная инфраструктура: проблема становления и развития / В.А.Гага, В.А.Шабаршев, В.Г.Шеховцев. – Томск, 1994. – Вып. 1.– С. 3–10.
8. Мамедова М.А. Особенности формирования рыночной инфраструктуры сельскохозяйственной продукции в Азербайджанской Республике // «Экономика и управление: проблемы, решения» науно-практический теоретический журнал, № 11 том 6 (152), Москва, 2024, с. 46-54
9. Стукач В.Ф. Региональная инфраструктура АПК: Учеб. пособие / В.Ф. Стукач. – Омск: Изд-во ОмГАУ, 2003. – С. 29.
10. Чумаченко Б.П. Развитие инфраструктуры и снижение потерь / Б.П. Чумаченко. – Алма-Ата: Казахстан, 1987.– 120 с.
11. FAO. (2023). *Food and agriculture data: Agricultural production and prices*. FAO. https://www.fao.org/faostat/en/#data

12. World Bank. (2022). *Agriculture and food: Overview*. World Bank. https://www.worldbank.org/en/topic/agriculture/overview
13. OBESD. (2024). *Statistical review of agriculture in Azerbaijan: 2020 - 2024*. Official Bureau of Economic Statistics of Azerbaijan. https://www.stat.gov.az/source/agriculture/
14. FAO. (2023). *Price trends for selected agricultural commodities*. FAO. https://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/
15. World Bank. (2022). *Logistics performance and agricultural market access*. World Bank.https://www.worldbank.org/en/topic/agriculture/publication/logistics performance-index
16. https://www.stat.gov.az/source/agriculture/
17. www.aqrarbazar.az

## Проблемы производства и реализации сельскохозяйственной продукции в Азербайджане

**Мушфига Мамедова**
*Д.ф.э.н, доцент*
Центр Аграрных Исследований

**Резюме:** В статье представлен научный анализ объёма производства и оптовых цен на сельскохозяйственную продукцию в Азербайджане за 2020 –2024 годы. В исследовании оценены причины колебаний объёма производства продукции в контексте рыночного спроса, логистики и экспортных возможностей. Исследована взаимосвязь между оптовыми ценами и объёмом производства, а также определено влияние ценовой нестабильности на доходы производителей. В статье также проанализировано влияние рыночной инфраструктуры и логистических механизмов на товарооборот сельскохозяйственной продукции и стратегическое планирование. На основе полученных результатов даны рекомендации по оптимизации планирования внутреннего рынка, стабилизации цен, укреплению логистических и сбытовых сетей, а также расширению экспортных возможностей для стратегической продукции.

**Ключевые слова:** сельское хозяйство, производство, оптовая торговля, колебания цен, рыночная инфраструктура, логистика, экспорт